*Həmkarlarımız*

# Mətbuatda peşəkarlıq nümunəsi

Rafiq Hacıyev özünün dəst-xətti ilə seçilən publisistdir, muğamın sirlərini bilməsi (açması), hüquqi bilikləri, mükəmməl dünyagörüşü, məntiqi qənaəti onun yazılarının mayasında, mənasındadır.

Bu heç də sirr deyil ki, jurnalistlərin iş, əmək alətləri çox sadədir və çəkisi olduqca yüngüldür: dümağ vərəqin və bir də əsasən göy rəngdə yazan qələmin çəkisi nə qədər olar ki? Qramlarla hesablanar...

Amma bu möcüzənin gücü, qüdrəti çox-çox ağırdır. Əynindəki köynəyin balaca cibinə belə sığışa bilən bu qələmlə kağız səni dar ağacına da qaldırar, dərin zülmət quyulardan işıqlı dünyaya da çıxara bilər.

Jurnalist əhlinin də var-dövləti, gücü-qüdrəti qələmdə və kağızdadı, məncə...

Möhtərəm Prezidentimiz İlham Əliyev jurnalist əməyinə çox yüksək qiymət verərək, azad mətbuatın inkişafı ilə bağlı ölkədə mühüm qərarların qəbul olunduğunu, jurnalistlərin sosial-məişət probleminə xüsusi diqqət verildiyini, bu qayğının bundan sonra da davam etdirilməsinin vacibliyini dəfələrlə qeyd etmişdir.

Peşəkar jurnalist, sonrakı illərdə hüquqşünas diplomu da almış Rafiq Hacıyevlə məni kim tanış edib, bu nə vaxt, harda olub, qəti yadımda deyil. Həm də bu yaddaşsızlığın zəifliyinin, əslində, heç yaşla da, ömrün uzunluğu ilə də bağlılığı yoxdu. Mən həmişə (elə indinin özündə də) maqnit hafizəsi, göz yaddaşı, səs yaddaşı (qan yaddaşı), milli yaddaş kimi mənəvi sərvətlər tamam bir ayrı mövzudur) olanlara həsəd aparmışam. Belə möcüzəli yaddaş dünyası olan insanlara heyranlıqla baxmışam.

Rafiq Hacıyevin adını təbii ki, ilk növbədə qəzet, jurnal səhifələrində görmüşəm və sonrakı illərdə, aylarda tanışlığımız "salam-əleyküm" səviyyəsinə çatıb. Bu gün mətbuat mühitində özünün sanbalı, səviyyəsi ilə seçilən iki qəzetin — "525-ci qəzet"in və "Ədalət"in səhifələrində nə vaxtsa Rafiq Hacıyevin "Yeddi il bağlı qalmış ağır cinayət" və "Amansız rəftar və ya od içində yanan gəlin" sərlövhəli maraqlı yazılarını oxudum, bəyəndim və fikrimi özünə də bildirdim. Onu da dedim ki, söz sənətində, yazı dəst-xəttində elə məxsusi məqamlar, üslublar var ki, onu yalnız sənə bənzər (sənətkarlıq baxımından) qələmdaşlar bacarar.

Ötən əsrdə nəşr olunan "Kommunist" qəzetində istedadlı jurnalist Rəfael Nağıyevin (ruhu şad olsun!) məhkəmə oçerklərinin əldən-ələ gəzdiyini, birnəfəsə oxunduğunu Rafiq Hacıyevin yadına saldım. Dedim ki, bəyənmədiyimiz sovetlər dövründə, qəzet və jurnalları barmaqla saymaq mümkün olan vaxtlarda kənd təsərrüfatı, sənaye (xüsusilə neft-kimya sənayesi), tikinti-nəqliyyat, səhiyyə, elm, təhsil, ailə problemləri kimi sahələri mükəmməl bilən, problemləri araşdırmaq, təhlil etmək, təkliflər vermək bacarığı (cəsarəti!) olan peşəkar jurnalistlər vardı.

Qəzet səhifələrində ümumxalq əhəmiyyətli elə təkliflər olub, elə tənqidi yazılar dərc edilib ki, həmin məsələlər Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro iclaslarında müzakirəyə çıxarılıb. Belə məqamların görmüşük axı, şahidi (bəzi hallarda iştirakçısı) olmuşuq. Qəzetlərdə elə oçerklər dərc olunurdu ki, bu yazılar bədii əsər kimi həvəslə, maraqla oxunardı, əks-səda verərdi, felyetonları birnəfəsə oxuyardıq... Əli Vəliyevin, Əvəz Sadıqın, Səyavuş Sərxanlının, Məmməd Aslanın... bu sahədəki qələm məhsullarını necə unutmaq olar? Bəs indi hara getdi, necə oldu bu klassik jurnalistika janrları?

O keçmiş illərdə sözün əsl mənasında respublikamızda səriştəli, cəsarətli jurnalist nəsli yetişmişdi. Həmin jurnalistlər ictimaiyyət arasında böyük hörmətə, nüfuza malik idilər. Onların rayonlara səfərləri hadisəyə çevrilərdi. Ağababa Rzayev, Nəsir İmanquliyev, Rəşid Mahmudov, Cəmil Əlibəyov, Tofiq Həsənov, Şükür Həbibzadə, Əsgər Ələsgərov, Əli İldırımoğlu, Əhməd İsayev, Tahir Məmmədov, Şahin Quliyev, Mürşüd Dadaşov, İlham Rəhimli kimi jurnalistlər bu çətin sənətin intişar tapmasında məxsusi rol oynamışlar.

"Kommunist" qəzetinin o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə xüsusi müxbiri, mənim sədaqətli dostum Firudin Rəsulov 1980-ci illərdə olmuş belə bir əhvalat danışıb mənə:

—"Kommunist" qəzetinin redaktoru Rəşid Mahmudov qəzetin əməkdaşı olaraq məni muxtar vilayət üzrə xüsusi müxbir vəzifəsinə göndərmək qərarına gəlir və bu məqsədlə vilayət partiya komitəsinin birinci katibi B.Gevorkova (lənət olsun!) telefonla məlumat verir. Maskalanmış daşnak B.Gevorkov mənim (Firudin Rəsulovun - R.M.) erməni dilini sərbəst bilməsindən narahat olur və R.Mahmudova deyir ki, mümkünsə başqa bir jurnalist göndərin...

Amma Firudin müəllim Qarabağa getdi və öz vəzifə borcunu kişi kimi yerinə yetirdi.

* * *

Mən hər görüşdə Rafiqə demişəm ki, istedada xəyanətin özü də bağışlanan deyil, Uca Yaradan hər bəndəsinə yazıçılıq, rəssamlıq, bəstəkarlıq qabiliyyətini rəva bilməyib... Sən yazıb-yaratmalısan, mətbuatda imzan görünməlidir. Nə qədər ki əlin qələm tutur, könlün ehtirasla çırpınır, ruhun göylərdə gəzir, gözlərində işıq cilvələnir, yaz, yarat!

Rafiq Hacıyev "Kommunist", "Səhər", "Azərbaycan", "Həyat", "Odlar Yurdu" qəzetlərində, AzərTAC-da məsul vəzifələrdə çalışıb. Bir müddət Azərbaycan Respublikası Baş Prokurorluğunda işləyib, bütün biliyini, istedadını işə səfərbər edib. Bu da məlumdur ki, fitri istedadın, qabiliyyətin məktəbi, universiteti yoxdur və gəlin etiraf edək ki, bəzən istedadlı şəxslərə qısqanclıqla (paxıllıqla) yanaşanlar da olur. Regionçuluq kimi xroniki xəstəliklər dünən də olub, bu gün də var. Mən Rafiq Hacıyevin yazılarını oxuyarkən bir daha yəqin etdim ki, o, qanunlarımızı, prossesual məsələləri bilən kamil hüquqçu kimi də formalaşıb.

Bu gün Rafiq Hacıyev işsizdir. Burada mən kimisə mühakimə etmək, kimisə qınamaq fikrindən uzağam. Bununla belə, bir ədəbiyyat, mətbuat adamı kimi intriqaçı, özündənrazı, xudbin, kəmsavadların iş başına gətirilməsinin əleyhinəyəm. Özümdən bir misal. Neçə il öncə vəzifədə irəli çəkilmiş antipodun biri məni otağına çağırıb buyurdu ki, sənin iş yerini dəyişirəm, sən bir başqa işə (əslində aşağı vəzifəyə) getməlisən.

Səbəbini soruşanda buyurdu ki, belə məsləhətdi. Təbii ki, mən getdim... Az sonra adı cəmiyyətdə məlum olan həmin kəsi vəzifədən qovdular. Həyatdır da, nə bilmək olar ki, sabah bizləri nələr gözləyir...

Yaxşı ki, maskalanmış nadürüstlərin maskasını üzündən sıyırıb əsl sifətini cəmiyyətə göstərə bilən qüdrətli əllər var və belə əllərə salam olsun!

Rafiq Hacıyev haqqında sənət adamlarının fikirlərindən sətirlər:

**Səyavuş Sərxanlı:**

"Rafiq Hacıyevin "İstintaqı peşəkarlar aparır" kitabı bir daha sübut elədi ki, özünü hamıya ürək, söz borclusu sayan istedadlı qələm dostumuz məhz belə ağrılı-uğrulu bir yoldadır.

Yol isə gedənlərindir".

("Ədalət" qəzeti, 12 oktyabr 2002-ci il).



**Cəmil Əlibəyov:**

"İstərdim ki, jurnalistikamızda hər şeydən əvvəl insana vətəndaş etikası ilə yanaşılsın. Bu, onu əlahəzrət ədəbiyyata yaxınlaşdırar və o zaman həyata Ana müdrikliyi, Ana məhəbbəti, Ana əndişəsi, Ana məsuliyyəti ilə yanaşar.

Rafiq Hacıyev kimi".

("Ədəbiyyat qəzeti", 30 iyul 2004-cü il).

**Vaqif Bəhmənli:**

"Rafiq Hacıyev Azərbaycan mətbuat aləmində beş-altı professionaldan biridir. Mən bu sözləri tam səmimiyyətlə deyirəm. Və bilirəm ki, fikrimə şərik çıxanlar çox olacaq".

("Ədalət" qəzeti, 8 may 1999-cu il).

**Tofiq Abdin:**

"Şayəd klassik jurnalistika baxımından yanaşsaq, Rafiq Hacıyevin qələminə söz ola bilməz. Baxırsan ki, hər şey yerindədir və özü də bu yazılardan öyrəniləcək şeylər də çoxdur".

("Ədalət" qəzeti, 15 may 2004-cü il).

**Şakir Yaqubov:**

"Qələm qardaşım Rafiq Hacıyev ömrünün ilk YUBİLEYini (50 yaşını — R.M.) işsiz peşəkarların sırasında olduğu dövrdə qarşılayır. Səriştəsizin, həvəskarın işsiz qalması bəlkə də işin xeyrinədir, Peşəkarın işdən aralı düşməsi isə hər cəhətdən adamı ağrıdır.

...Peşəkarlar olmadan ötüşə bilməyən cəmiyyətdə Peşəkarlara qiymət verilməməsi Peşəkarın tale yazısıdır və buna görə darılmağa dəyməz.

Başını dik tut! Ad günün mübarək, Peşəkar!"

("525-ci qəzet", 8 may 2004-cü il).

...Belə nəql edirlər ki, Deni Didro ev xidmətçisinə deyirmiş ki, hər gün səhər mənim yataq otağımın qapısını döyüb ucadan deyərsən:

—Ser, ayağa qalxın! Sizi böyük işlər gözləyir!

Binəva xidmətçi də hər gün sübh tezdən məşhur filosofun yataq otağının qapısını taqqıldadıb ucadan deyərmiş:

—Ser, ayağa qalxın! Sizi böyük işlər gözləyir!

İndi sizlər hər gün Heydər Əliyev sarayının həndəvərində, qədim və doğma "Torqovi" tərəflərdə (Rafiq Hacıyevin mənzili bu ətraflardadır) yüksək zövqlə geyinmiş, qədd-qamətli, yaraşıqlı bir kişi görsəniz, ərk edib ona yaxınlaşın, bu kişi Rafiq Hacıyevdir. Salamlaşın, hal-əhval tutun, fəqət söhbəti uzatmayın, qoyun öz yolu ilə getsin, onu qarşıda böyük işlər gözləyir...

Hələlik isə yolu Baş Kitabxanamızadır.

**Ramiz MƏMMƏDZADƏ.**